**Təhsil Nazirliyi**

# AZƏRBAYCANDA QEYRİ-FORMAL VƏ İNFORMAL ÜSULLARLA ƏLDƏ EDİLMİŞ SƏRİŞTƏLƏRİN TANINMASI (QFİTT) SİSTEMİNƏ DAİR KONSEPSİYA SƏNƏDİ

**İyul, 2018-ci il**

## Abreviaturaların siyahısı

| | |
|---|---|
| **QFİTTİQ** | **QFİTT üzrə İşçi Qrup** |
| **PTDA** | **Peşə Təhsili üzrə Dövlət Agentliyi** |
| **CEDEFOP** | **Avropanın Peşə Təhsilinin İnkişafı Mərkəzi** |
| **AKÇ** | **Avropanın Kvalifikasiyalar Çərçivəsi** |
| **ATF** | **Avropa Təlim Fondu** |
| **Aİ** | **Avropa İttifaqı** |
| **ÖT** | **Ömürboyu Təhsil** |
| **TN** | **Təhsil Nazirliyi** |
| **AzKÇ** | **Azərbaycanın Kvalifikasiyalar Çərçivəsi** |
| **MKÇ** | **Milli Kvalifikasiyalar Çərçivəsi** |
| **ƏTT** | **Əvvəlki Təlimin Tanınması** |
| **PTT** | **Peşə təhsili və təlimi** |
| **QFİTT** | **Qeyri-formal və informal üsullarla əldə edilmiş səriştələrin tanınması** |

# MÜNDƏRİCAT


**1 Giriş ... 4**

1.1 Ümumi məlumat ... 4

1.2 Qeyri-formal təlim, informal təlim və bu vasitələrlə əldə edilən səriştələrin tanınması ... 4

**2 Məqsədlər və baxış ... 7**

2.1 QFİTT-ə ehtiyacın olduğunu vurğulayan amillər ... 7

2.2 İnformal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınmasında məqsəd ... 8

2.3 QFİTT-lə bağlı Baxış ... 8

2.4 Nəticələr ... 9

2.5 Maraqlı Tərəflər ... 10

**3 Vəziyyət və Boşluqların Təhlili ... 11**

3.1 Hazırki Siyasi Çərçivədə QFİTT-in Yeri ... 11

3.2 Yaşlıların Təhsilinə dair Siyasi Müddəaların İcmalı ... 13

3.3 QFİTT-lə bağlı imkanlar və çətinliklər ... 13

3.4 Yaşlıların Təhsilinin Məhdud Təmin edilməsi problemi ... 14

**Əlavə 1: Biblioqrafiya ... 16**

# 1 Giriş

## 1.1 Ümumi məlumat

Azərbaycan hazırda Ömürboyu Təhsilin təşviqi istiqamətində Milli Kvalifikasiyalar Çərçivəsini hazırlamaq prosesindədir. Lakin Azərbaycan AKÇ Məsləhət Qrupunun üzvü olmadığından, yeni hazırlanacaq bu çərçivə Avropa Kvalifikasiyalar Çərçivəsinə istinad etməyəcək, amma yenə də burada əsas hədəf bütün mövcud MKÇ-lərin malik olduğu funksiyaları AzKÇ-də əks etdirməkdir.

(Qeyd etmək lazımdır ki, Avropa İttifaqının üzv dövlətləri arasında əməkdaşlıq müəyyən istinad mexanizmlərinin hazırlanmasına səbəb olmuşdur, bu mexanizmlər təhsilalanlara kömək etmək və yerli islahatları dəstəkləmək məqsədi daşıyır və təhsilalanlar üçün əsas səriştələr, Ali təhsildə və PTT-də keyfiyyətin təminatı, mobilliyin keyfiyyəti, ömürboyu peşəyönümü, xaricdə alınmış kvalifikasiyaların tanınması və qeyri-formal və informal təlimin tanınması (QFİTT) sahəsində tövsiyələr və digər ümumi prinsipləri ehtiva edirlər. Avropa Şurasının 2012-ci il 20 dekabr tarixli qeyri-formal və informal təhsilin tanınması üzrə Tövsiyəsi çərçivəsində Üzv Dövlətlər və AKÇ Məsləhət Qrupunun digər üzvləri ümumilikdə bu razılığa gəlmişlər ki, təhsilalanın bilik, bacarıq və səriştələrini[1]tanıyaraq bütöv kvalifikasiya və yaxud onun bir hissəsini əldə etməsini təmin edən tanınma tədbirlərini 2018-ci ilə kimi müəyyən etsinlər və bu proseslər barədə AKÇ Məsləhət Qrupuna hesabat versinlər.)

Bu sənəddə əsas məqsəd QFİTT-lə bağlı Konsepsiyanı formalaşdırmağa imkan verəcək bir çərçivə formalaşdırmaqdır və bu məramla da çərçivə ilə bağlı müzakirələrin aparılmasına kömək edəcək və hətta Konsepsiyanın mətninin hazırlanmasına töhfə verəcək məqamlar sənəddə öz əksini tapmışdır. Bu sənəd QFİTT İşçi Qrupunun ilkin müzakirələrini dəstəkləmək məqsədi ilə hazırlanmışdır, bu Qrupun yaradılması layihə çərçivəsində nəzərdə tutulmuş və layihənin İlkin Hesabatının hazırlanması zamanı Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə razılaşdırılmışdır. MKÇ layihəsi nisbətən uzun müddət ərzində prosedurların hazırlanması və pilot edilməsi, o cümlədən konkret sahədə potensialın formalaşdırılmasını dəstəkləmək niyyətindədir.

Bu sənədin hazırlanması mütləq şəkildə QFİTT İQ-in ilk görüşündən əvvəl baş tutmuşdur və Texniki Yardım komandasının son zamanlarda müvafiq sahədə əldə etdiyi təcrübələrə əsaslanmış və Avropa Təlim Fondunun PTT Siyasəti və Sistemləri üzrə Baş Mütəxəssisi Dr. Eduarda Castel-Branco ilə aparılan müzakirələrdən bəhrələnmişdir.

## 1.2 Qeyri-formal təlim, informal təlim və bu vasitələrlə əldə edilən səriştələrin tanınması

Ömürboyu təlim konsepsiyası çərçivəsində "formal", "qeyri-formal" və "informal" təlim arasında adətən fərqləndirmə aparılır. Avropa Komissiyasının Ömürboyu Təlim üzrə Memorandumunda[2] təyin edilmiş bu konsepsiyalar Avropa İttifaqında təhsil və təlim sahəsində son illərdə həyata keçirilmiş fəaliyyətlərin əsas ana xəttini təşkil etmişdir. Məktəbəqədər, orta və ali təhsil səviyyələrində, habelə akademik, ümumi və peşə təhsili

[1] Qeyri-formal və İnformal Təlimin Tanınması ilə bağlı Avropa Şurasının Tövsiyəsi, 20 dekabr, 2012-ci il

[2] Avropa Komissiyasının ömürboyu təhsil haqqında 30 oktyabr, 2000-ci il tarixli Memorandumu (SEC (2000) 1832 yekun - Rəsmi Jurnalda nəşr edilməmişdir).

pillələrində məktəblər, kollec və universitetlərin təmin etdiyi təhsil sistemi çərçivəsində təklif edilən əsas proqramlar və kvalifikasiyalar "Formal Təlim" kimi təyin edilir, buna uyğun olaraq, Təhsil haqqında Qanun, o cümlədən Peşə Təhsili haqqında Qanun layihəsində aşağıdakı qaydada təyin edilir:

- Qeyri-formal təhsil – müxtəlif kurslarda, dərnəklərdə və fərdi məşğələlərdə əldə edilən və dövlət təhsil sənədinin verilməsi ilə müşayiət olunmayan təhsil forması

  Burada formal təhsil sistemindən kənarda təşkil edilən, müəyyən növ təlim dəstəyinin təmin edilməsini ehtiva edən planlaşdırılmış təlim fəaliyyətləri nəzərdə tutulur və əsas etibarilə yaşlıların təhsili və təlimlərin təmin edilməsindən ibarətdir (məsələn işlə bağlı təlim kursları, onlayn və yaxud distant təlim və yaxud vətəndaş cəmiyyəti təşkilatları tərəfindən təşkil edilən daxili kurslar);

- İnformal təhsil – özünütəhsil yolu ilə biliklərə yiyələnmənin forması

  Burada söhbət təşkil olunmayan və ya hər hansı struktura malik olmayan təlimdən gedir, sözügedən təhsil formasında fərdlər bilik və bacarıqlarını ya həyat və iş təcrübəsi, yaxud da təcrübə və ya özü-öyrənmə yolu ilə bilərəkdən, yaxud bilməyərək əldə edirlər.

Ölkədə peşə təhsili və təlimi sistemlərinin təklif etdiyi kvalifikasiyaların daha çox ön plana çəkilməsi onunla nəticələnmişdir ki, kvalifikasiyalar artıq təlim nəticələri baxımından təyin edilir və sabit xarakter almağa başlayır, bu da öz növbəsində istər qeyri-formal və informal təlim, istərsə də formal təlim proqramlarında iştirak etməklə qazanılmış nailiyyətləri tanımaq istiqamətində çox əhəmiyyətli rol oynamışdır. PTT kvalifikasiyalarının qiymətləndirmə prosedurları getdikcə "Əvvəlki Təlimin Tanınması" ilə bağlı tədbirləri də ehtiva etməyə başlamışdır ki, bu da namizədlərin əvvəlki təlimlərinin tanınmasına imkan verir və bununla da ya bütöv kvalifikasiyanı almağa, ya da kvalifikasiyaları almaq üçün kreditləri əldə etməyə şərait yaradır. QFİTT konsepsiyası şəxslər üçün əvvəllər yalnız təlim sistemi üzrə ardıcıl irəliləməklə əldə edilməsi mümkün olan kvalifikasiyaları qeyri-ənənəvi təlim yolları ilə əldə etmək imkanı yaradır.

Kvalifikasiyaların formal təhsil sistemi vasitəsilə əldə edilməsi nə qədər vacib olsa da, ayrı-ayrılıqda bəzi peşələr və seçimlər üçün ömürboyu və çoxistiqamətli inkişaf tələbi alternativ təlim yolları və təlim nəticələrinin təsdiqlənməsinə lüzum yaradır. QFITT formal təhsil və təlim sistemində kvalifikasiyalar üçün kreditlərin verilməsi çərçivəsini də aşan daha geniş bir yanaşmanı təklif edir. Bir fərdin malik olduğu bilik, bacarıq və səriştələr məcmusu onun məktəb, universitet və yaxud digər təhsil və təlim müəssisəsində əldə etdiyi biliklərdən daha çoxunu, yəni iş və həyat təcrübəsində öyrəndiyi və qazandığı bütün bacarıqları əhatə edir. Bu cür nailiyyətlərin rəsmi olaraq tanınması və təsdiqlənməsi imkanı işçilər üçün iş yerində təlimin və ömürboyu təlim kontekstində fasiləsiz peşəkar inkişafın nə qədər vacib olduğunu bir daha vurğulayır və ayrı-ayrılıqda təhsilalanlar üçün yeni imkanlar formalaşdırır.

QFİTT-lə bağlı Avropanın müxtəlif ölkələrində həyata keçirilən təşəbbüslər qiymətləndirmə və sertifikatların verilməsi baxımından bir sıra yanaşmaları ehtiva etmişdir və bütün bu proseslərin əsas qayəsində duran prinsiplər və metodlar çox oxşar olsa da, bura fərqli prosedurlar və mürəkkəblik səviyyələri daxildir. Avropanın qeyri-formal və informal təlim vasitəsilə əldə edilmiş səriştələrin tanınması üzrə təlimatının (2009) birinci nəşrində QFİTT aşağıdakı qaydada təyin edilmişdir:[3]

> *"Fərdin formal, qeyri-formal və informal təlim yolları ilə əldə etdiyi təlim nəticələrinin (bilik, bacarıq və səriştələr) əvvəldən təyin edilmiş meyarlar fonunda qiymətləndirilməsi və tanınma standartının tələbləri ilə uyğun olmasının müvafiq səlahiyyətli qurum tərəfindən təsdiq edilməsidir. Təsdiqləmə, bir qayda olaraq, sertifikatın verilməsi ilə nəticələnir".*

Ən son nəşrdə (2015) [4]aşağıdakı qaydada nisbətən geniş tərif təqdim olunur:

> *"Təsdiqləmə, ilk növbədə, fərdlərin müxtəlif və zəngin təlim yolu keçdiyini nümayiş etdirmək deməkdir. Bu təlim çox zaman formal təhsil və təlimdən kənarda, evdə, iş yerində və yaxud asudə vaxtlarda baş tutur və çox zaman nəzərə alınmır və məhəl qoyulmur. İkincisi, təsdiqləmə hansı kontekstdə baş tutmasından asılı olmayaraq, fərdlərin keçdiyi təlimin dəyərləndirilməsidir. Təsdiqləmə prosesindən keçmək təhsilalana imkan verir ki, qeyri-formal və informal təlim vasitəsilə əldə etdiyi səriştələri gələcək təlim və məşğulluq imkanları üçün istifadə edə bilsin. Bu proses xüsusən də etibarlılıq, qanunauyğunluq və keyfiyyətin təminatı ilə bağlı tələblərin qarşılandığını nümayiş etdirməklə inam yaratmalıdır. Hansı formada və qaydada tərtib olunmasından asılı olmayaraq, təsdiqləmə ilə bağlı prosedurları hazırlayan zaman qeyd edilən "nümayiş etdirmək" və "dəyərləndirmək" prinsipləri mütləq şəkildə hər zaman nəzərə alınmalıdır".*

Səriştələrin tanınması ilə bağlı Təlimatlarda (2015) qeyd edilir ki, QFİTT prosesləri və prosedurları bir qayda olaraq dörd mərhələni ehtiva edir – fərdin qeyri-formal və informal təlim vasitəsilə əldə etdiyi səriştələrin (yəni təlim nəticələri) MÜƏYYƏN EDİLMƏSİ, fərdin qeyri-formal və informal təlim vasitəsilə əldə etdiyi təlim nəticələrinin dəlil əsasında SƏNƏDLƏŞDİRİLMƏSİ, fərdin təlim nəticələrinin təqdim edilən dəlilin dəyərləndirilməsi vasitəsilə QİYMƏTLƏNDİRİLMƏSİ və fərdə sözügedən təlim nəticələrini əldə etdiyini təsdiq edən SERTİFİKATIN VERİLMƏSİ.

Bununla belə, bu o demək deyil ki, QFİTT prosesinə daxil olan bütün namizədlər sertifikatlaşma mərhələsinə kimi bütün prosesləri mütləq şəkildə keçməlidirlər. Bəziləri üçün öz bilik və bacarıqlarını profil şəklinə salmaq və sənədləşdirmək perspektiv işəgötürənlərə daha səmərəli şəkildə təqdimat etmək üçün kifayət edəcəkdir. Bununla belə, nailiyyətlərin rəsmi şəkildə sertifikatlaşma vasitəsilə tanınması sosial güzəştlərdən yararlanmaq və yaxud işlə təmin etmək üçün seçim meyarlarında rəsmi sənəd və

---

[3] Avropanın qeyri-formal və informal təlim vasitəsilə əldə edilmiş səriştələrin tanınması üzrə təlimatı, CEDEFOP, Avropa İttifaqı Nəşriyyat İdarəsi, Luksemburq, 2009-cu il

[4] Avropanın qeyri-formal və informal təlim vasitəsilə əldə edilmiş səriştələrin tanınması üzrə təlimatı, CEDEFOP, silsilə nəşrlər 104
Lüksemburq: Avropa İttifaqının Nəşriyyat İdarəsi, 2015

sertifikatların olmasına xüsusi əhəmiyyət verən cəmiyyətlərdə daha vacib əhəmiyyət kəsb edir.

# 2 Məqsədlər və baxış

## 2.1 QFİTT-ə ehtiyacın olduğunu vurğulayan amillər

Qeyri-formal və informal təlim vasitəsilə əldə edilən səriştələrin tanınması ilə bağlı tələb "Azərbaycan Respublikasının peşə təhsili və təlimi sektoru üzrə Strateji yol xəritəsi" və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nda vurğulanmaqla, çox aydın şəkildə ən yüksək səviyyələrdə elan edilmişdir. Eyni zamanda qeyri-formal və informal təlim vasitəsilə əldə edilmiş səriştələrin tanınması üçün metodologiyaların hazırlanması həm də Agentliyin öhdəliklərindən biri kimi Peşə Təhsili üzrə Dövlət Agentliyinin Əsasnaməsində də nəzərdə tutulmuşdur.

Bu mexanizm artıq bir çox sayda ölkədə hazırlanıb istifadəyə tətbiq edildiyindən, bu tələbin əsasında duran amillər hamı üçün aydındır. Bununla belə, Azərbaycanda QFİTT ən azından qısamüddətli də olsa, nisbətən dar çərçivəli problem üçün həll yolu kimi müəyyən edilmişdir. Buna görə də aşağıda təqdim edilmiş tələblər başqa ölkələrə şamil edilə biləcək nisbətən geniş amilləri deyil, əsasən hazırda və təcili əsasda təyin edilmiş məqamları əks etdirir.

- (Lakin başqa halda səriştəli hesab edilən) kvalifikasiyası olmayan işçilərə qanunla tənzimlənən əmək bazarında iştirak etmək imkanı vermək;
- İşəgötürənlərə mövcud və potensial işçilərin bacarıqlarını daha yaxşı müəyyən etmək imkanı vermək;
- Əvvəllər formal təhsil və təlim sistemini tərk etmiş insanların ömürboyu təlimdə yenidən iştirak etmələrini təşviq etmək;

Bundan başqa, konkret bir məsələ də nəzərdən keçirilməlidir. Belə ki, Azərbaycan Respublikasında peşə təhsili və təlimi sektoru üçün Strateji Yol Xəritəsinin həyata keçirilməsi haqqında Fəaliyyət Planında QFİTT-in müəyyən vəzifələr üçün kvalifikasiya sənədlərinin təmin edilməsi metodlarından biri kimi daxil edilməsi məqsədi ilə mexanizmin hazırlanması nəzərdə tutulur. Burada QFİTT-lə bağlı tələb kifayət qədər yaxşı əsaslandırılır və ömürboyu təlimi təşviq etmək istiqamətində milli təşəbbüsün bir hissəsi kimi bu ideyanın tədricən həyata keçirilməsi yalnız onun formalaşdıracağı üstün cəhətlər aydın şəkildə izhar edildiyi təqdirdə davam etdirilə bilər.

Sözügedən tələblə bağlı nisbətən dar çərçivədə təqdim edilmiş əsaslandırma ona da dəlalət edir ki, bu imkanların yaradılması ilə kifayətlənmək düzgün deyil, belə ki onların əsasında duran siyasi kurslar da formalaşdırılmalıdır. Bu məqamda kiçik məsələlərə (əsasən əmək bazarının daha yaxşı fəaliyyət göstərməsinə köklənmiş) əhəmiyyət verməklə işi bitmiş hesab etmək olmaz, əksinə ömürboyu təhsildə QFİTT-in vacib rolu və şəxsin hüquq və vəzifələrinin artırılması baxımından yaratdığı imkanları nümayiş etdirmək lazımdır. İqtisadi cəhətdən fəal əhalinin 67,5 faizinin heç bir kvalifikasiyaya malik olmaması faktı bir daha bunun nə qədər vacib olduğunu vurğulayır (DSK).

QFİTT-in formalaşdırılmasına dəstək fəaliyyəti Aİ-nin maliyyə dəstəyi ilə icra edilməkdə olan iki layihədə nəzərdə tutulur, bunlardan biri QFİTT-i MKÇ-nin həyata keçirilməsi çərçivəsində daha geniş kontekstdə təqdim edir. Bu layihələrin məhdud bir zaman çərçivəsində reallaşacağını nəzərə alaraq, bu cür layihələrin təmin edə biləcəyi əlavə resurslar düzgün vaxtda təqdim edilməlidir.

## 2.2 İnformal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınmasında məqsəd

Daha uzunmüddətli perspektivdə bu məqsədin çərçivəsi CEDEFOP-un qeyri-formal və informal təlimlə əldə edilən səriştələrin tanınması barədə Avropa Təlimatları kimi mexanizmlərində təyin edildiyi qaydada, QFİTT-i nisbətən geniş miqyasda əks etdirmək üçün daha ətraflı təqdim oluna bilər. Bu məqsədlər aşağıdakı məsələləri ehtiva edə bilər:

- Bacarıqlarını empirik üsullarla qazanmış şəxslərə əmək bazarında və ümumilikdə cəmiyyətdə layiqli yerlərini tutmağa kömək etməklə onların imkanlarını artırmaq;

- Sertifikatlaşma prosesindən daha çox istifadə etmək imkanı təmin etməklə peşə kvalifikasiyaları ilə bağlı tələb və təklifin daha çox uzlaşmasına töhfə vermək;

- İşçilərin məşğulluğu, karyera inkişafı və öyrənmək istiqamətində stimullarını gücləndirərək onlar arasında mobilliyi dəstəkləmək. Həm məşğul, həm də özünüməşğul şəxslər üçün imkanlar yaratmaq;

- Əsas etibarilə bacarıq səviyyələrinin yüksəldilməsi və müəssisələrin rəqabət qabiliyyətinin artırılmasına yönəlmiş kadr siyasətinə dəstək verməklə işəgötürənlərin tələblərini qarşılamaq;
- Formal kvalifikasiyaların və ardıcıl stabil iş statusunun olmaması səbəbindən əlverişsiz vəziyyətdə olan insanlar üçün formal əmək bazarına çıxış imkanlarını genişləndirməklə inklüvizliyi təmin etmək;

- Ömürboyu təhsil çərçivəsində kvalifikasiyaların əldə edilməsini təmin edən alternativ təlim yolları barədə məlumatlılığı artırmaq;

- Daha yaradıcı, inklüziv və açıq cəmiyyətin formalaşmasına dəstək vermək.

## 2.3 QFİTT-lə bağlı Baxış

QFİTT-lə bağlı məqsədlərdə nəzərdə tutulduğu kimi (yuxarıda göstərilən) baxış da qısamüddətli vacib tapşırıqları və uzunmüddətli hədəfləri əks etdirən iki hissədən ibarət ola bilər.

QFİTT-ə dair mövcud və ilkin baxış hazırda kvalifikasiyasız işçilərin kvalifikasiyalar əldə etmələrini vurğulayır və öz ana xəttini onun üzərində qurur. Hələ erkən hazırlıq mərhələsində olmasına baxmayaraq (bunun nəticəsi kimi hazırki Konsepsiya hazırlanır), nəzərdən keçirilməkdə olan mümkün yanaşmalar çeviklik, qiymətləndirmə və keyfiyyətin təminatı baxımından əvvəlki təcrübələri özündə əks etdirir. Aydındır ki, bu

da Yol Xəritələrində qeyd edilən və hələ qəbul edilməsi gözlənilən MKÇ sənədində nəzərdə tutulan digər aidiyyəti məsələlərin daha tez həyata keçirilməsini zəruri edir.

Bu cür yanaşma dar çərçivəlidir, hərçənd ki bəlkə də qısamüddətli vəzifələrlə uyğunluq təşkil edir. Digər təcrübələrlə tanış olduğumuz zaman, çox zaman qarşılaşdığımız mənzərə ondan ibarətdir ki, QFİTT təkcə iqtisadi inkişafa dəstək mexanizmi deyil, eyni zamanda şəxsin və bütövlükdə cəmiyyətin də tələblərinə xidmət edən bir alət kimi qəbul edilir. Bu cür geniş perspektivdə QFİTT ömürboyu təlimin ayrılmaz bir sütunu kimi qavranılır. Azərbaycan Aİ-nin üzvlüyünə namizəd dövlət olmasa da, Hökumət öz qarşısında silsilə Yol Xəritələrində qəbul edilmiş inkişaf strategiyaları vasitəsilə, Avropa İttifaqının bir sıra təşəbbüsləri, habelə Milli Kvalifikasiyalar Çərçivəsinin hazırlanması istiqamətində hədəflər qoymuşdur. Bu sənədin ilkin versiyası Avropa İttifaqının maliyyə dəstəyi ilə keçirilən "Azərbaycanda MKÇ-nin Həyata keçirilməsinə Dəstək" layihəsi və Avropa Təlim Fondu (ATF) ilə əməkdaşlıq çərçivəsində hazırlanmışdır.

## 2.4 Nəticələr

QFİTT Azərbaycanda çox da bəlli olmayan və bu səbəbdən də əsas etibarilə istifadə edilməyən təcrübədir. Bununla belə, tədricən hansı formada hazırlanmasından asılı olmayaraq, bu proses təhsil və təlim sisteminin müxtəlif aspektlərində bir sıra nəticələrə və təsirlərə səbəb olacaqdır. Bunlar aşağıdakıları ehtiva edəcəkdir:

Standartlar

Tam formalaşmış, müasir və mobil QFİTT sistemi üçün müvafiq standartlar olmalıdır ki, şəxsin əldə etdiyi nailiyyətlər onlarla müqayisədə qiymətləndirilsin. Hal-hazırda bütün sahələri əhatə edən standartlar məcmusu mövcud deyildir və buna görə də indiki halda QFİTT yalnız məhdud sayda kvalifikasiya sahələrini əhatə edə bilər. Əksəriyyəti donorların maliyyələşdirdiyi layihələrin məhsulu olan bu standartlar ümumi prosesə öz töhfəsini versə də, bütövlükdə PTT sisteminin nəticəyə əsaslanan modelə transformasiyası üçün daha uzunmüddətli yanaşmanın tətbiqi tələb olunur.

Yönləndirmə Sistemləri

QFİTT sisteminin uğurlu realizasiyası, bir qayda olaraq, namizədləri proseslər barədə məlumatlandıra bilən bacarıqlı mütəxəssislərin olmasını tələb edir. Düzgün yönləndirmə olmadığı təqdirdə, QFİTT tam şəkildə namizədləri cəlb edə bilməz, bununla da Ömürboyu Təlimin insanı proseslərin mərkəzində saxlama prinsipinə xələl gətirə bilər.

Hazırki layihə çərçivəsində bu yanaşmanın kiçik bir pilot layihəsini həyata keçirmək tələb olunduğundan, bu istiqamətdə bir qrup şəxs hazırlanacaq və dəstəklənəcəkdir. Lakin QFİTT-lə bağlı istənilən müfəssəl milli sistem üçün daha çox sayda mütəxəssisin olması tələb olunacaqdır. Ümid var ki, pilot layihə çərçivəsində görüləcək işlər sözügedən milli sistemin yaradılması üçün zəmin formalaşdıracaqdır.

Keyfiyyətə Təminat və Qiymətləndirmə

Bu tapşırıq iki hissədən ibarətdir.

İlk növbədə belə bir narahatçılığın olacağını ehtimal etmək olar ki, QFİTT vasitəsilə kvalifikasiyanın əldə edilməsi mövcud, əsas etibarilə biliklərin verilməsinə əsaslanan yanaşmaları şübhə altına qoyacaq. Həmçinin belə bir risk də mövcuddur ki, QFİTT vasitəsilə əldə edilən kvalifikasiya standartdan aşağı göstərici kimi qəbul edilə bilər. Bununla belə, o cümlədən tərifində qeyd edildiyi kimi, nəticəyə əsaslanan kvalifikasiya əldə edilmə formasından asılı olmayaraq yalnız konkret standartı qarşıladığı təqdirdə verilə bilər. Heç bir müqayisə aparmadan, QFİTT-in təmin etdiyi kvalifikasiyaları digər formal yollarla əldə edilən kvalifikasiyalardan fərqləndirmək o deməkdir ki, keyfiyyətin təminatı və qiymətləndirilməsində bir qədər fərqli standartlar və yaxud fərqli dəqiqlik səviyyəsi tətbiq edilmişdir. Bu həm də QFİTT-lə bağlı hazırda müxtəlif yerlərdə qəbul edilmiş təcrübə, habelə bilavasitə Azərbaycanda MKÇ-yə dair nəzərdə tutulan daha geniş miqyaslı məqsədlərlə uyğunsuzluq təşkil edəcəkdir. Bu məsələnin həlli kimi QFİTT-in Keyfiyyətinə Təminat və Qiymətləndirilməsi digər təhsil yolları üçün tətbiq edilən eyni standartlara uyğun həyata keçirilməlidir.

İkinci məqam bundan ibarətdir ki, hətta PTT-nin özündə belə keyfiyyətin təminatı və qiymətləndirmə prosesi hazırda təkmilləşmə və MKÇ-nin tələblərinə uyğunlaşdırılma mərhələsindədir. Yuxarıda qeyd etdiyimiz kimi, sertifikatlaşma prosesində bərabərliyi təmin etmək məqsədi ilə bu təşəbbüsləri bir-biri ilə əlaqələndirmək lazımdır. İlk növbədə QFİTT məhdud çərçivədə və pilot olaraq icra ediləcəkdir. Bununla belə, bu proses sistem boyunca tədricən tətbiq edildikcə, digər metodlarla da uyğunluq təşkil etməlidir.

Standartlar və yönləndirmə sistemlərində olduğu kimi, layihə çərçivəsində pilot prosesin həyata keçirilməsi üçün bacarıqların formalaşması dəstəklənəcəkdir və bu biliklər digər milli sistemlərin məlumatlandırılması üçün istifadə edilə bilər.

## 2.5 Maraqlı Tərəflər

Qeyri-formal və informal üsullarla əldə edilmiş səriştələrin tanınması mürəkkəb prosesdir və fərqli funksiya və öhdəliklərə malik bir sıra iştirakçı arasında əməkdaşlığın olmasını tələb edir. Bu prosesin hansı formada təşkilindən asılı olaraq, fəaliyyətlər əlaqələndirilmiş strategiya çərçivəsində fərqli maraqlı tərəfləri bir araya gətirəcəkdir.

İstənilən alda əsas maraqlı tərəflər aşağıdakılardan ibarət olacaqdır:

| | Maraqlı Tərəflər | Funksiya |
|---|---|---|
| **Dövlət qurumları** | - Təhsil Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br>- Təhsil, təlim və ixtisas müəssisələri<br>- Dövlət Məşğulluq mərkəzləri | - Siyasət və strategiyanın təmin edilməsi<br>- Rəhbər prinsiplərin təmin edilməsi<br>- Prosedurların hazırlanması<br>- Rol və öhdəliklərin təyin edilməsi |

| | | |
|---|---|---|
| | | - Qurumlar arasında əlaqənin yaradılması<br>- Keyfiyyətin təminatı mexanizmlərinin qurulması |
| **Təhsil və təlim müəssisələri** | - Peşə məktəbləri<br>- Peşə mərkəzləri<br>- Kolleclər<br>- Universitetlər<br>- Özəl təhsil müəssisələri<br>- Qiymətləndirmə mərkəzləri və ixtisas tanıma mərkəzləri | - Qiymətləndirmə və sertifikatlaşmanın aparılması<br>- İdentifikasiya və sənədləşdirmə ilə bağlı dəstəyin təmin edilməsi<br>- Peşəyönümü və məsləhət xidməti ilə bağlı dəstəyin təmin edilməsi |
| **Biznes sektoru** | - Müəssisələr<br>- Sahibkarların Konfederasiyası<br>- Həmkarlar İttifaqı Konfederasiyası | - Məlumatın verilməsi |

# 3 Vəziyyət və Boşluqların Təhlili

Kvalifikasiyası olmayan işçilərin böyük əksəriyyət təşkil etməsi iqtisadi inkişaf üçün əsas boşluq hesab edilsə də, Azərbaycanda Yaşlıların Təhsili və Təlimi göstəriciləri çox aşağı səviyyədədir. 2016-cı ildə DSK-nin verdiyi məlumata əsasən yalnız 15962 nəfər şəxs təlim, ixtisasartırma və yenidən hazırlanma proqramlarında iştirak etmişdir. Bu da məşğul əhalinin təxminən 0,3 %-ni təşkil edir. Dünya Bankının apardığı Sorğuya əsasən işçilərin təlimi əsas etibarilə şirkətlər tərəfindən həyata keçirilir. Demək olar ki hər ikinci Azərbaycan şirkəti öz işçilərinin bacarıq səviyyələrini yüksəltmək üçün təlimlər keçirir. Şirkətlər nisbətən az bacarıqlı işçilərlə müqayisədə (43%) daha çox yüksək ixtisaslı işçilər (şirkətlərin 50%-i) üçün təlimlər təşkil etməyə meyllidir (Rutkovski, 2015). QFİTT ilə bağlı PTT-yə dair Yol Xəritəsində və bu sənəddə istinad edilən tədbirlər ən azından qismən də olsa bu məsələləri əhatə etmək səylərini özündə birləşdirir.

## 3.1 Hazırki Siyasi Çərçivədə QFİTT-in Yeri

QFİTT Avropa İttifaqı Şurası tərəfindən öz üzv dövlətləri üçün (Şuranın Tövsiyəsi 2012/C398/01) məşğulluq və mobilliyi artırmaq, o cümlədən sosial-iqtisadi cəhətdən əlverişsiz vəziyyətdə və yaxud aşağı kvalifikasiya səviyyəsində olan insanlar üçün ömürboyu təlimin təşviqini daha da artırmaq istiqamətində verilmiş bir tövsiyədir. Bu elə bir zaman çərçivəsində hazırlanmışdır ki, Avropa və ölkə səviyyələrində işçi qüvvəsinin məşğulluğu və insan kapitalının artırılması tələbi siyasi gündəlikdə ən öndə duran məsələlərdən biri idi (Cedefop; Avropa Komissiyası, İCF, 2017).

QFİTT Azərbaycanda nisbətən yeni konsepsiyadır və ona dair siyasi və hüquqi çərçivə hələ ki hazırlıq mərhələsindədir. Lakin dövlətdə QFİTT-in tətbiqini nəzərdə tutan siyasi və hüquqi sənədlər mövcuddur. Bu cür sənədlər Azərbaycan Respublikasının fərmanları, qanun və strategiyalarını ehtiva edir ki, onlar da aşağıda cədvəldə təqdim edilmişdir. Cədvəldə o cümlədən Azərbaycanda QFİTT ilə bağlı məqamlara toxunan dəqiq maddələr də qeyd edilmişdir.

QFİTT-in adı çəkilən hüquqi və strategiya sənədləri

| **Sənədin adı** | **Təsdiq/Qəbul İli** | **QFİTT-ə istinad edilən maddələr, fəsillər** |
|---|---|---|
| **Təhsil haqqında Qanun** | 2009 | Qeyri-formal və informal təhsilə dair təriflər Qanunun 1-ci Maddəsində təqdim edilir.<br>Maddə 12-də qeyri-formal və informal təlim təhsil formaları kimi tanınır. |
| **"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı** | 2015 | 3.3.5. ömür boyu təhsil, qeyri-formal və informal təhsilin təşkilinin və bu yolla təhsil almış şəxslərin bilik və bacarıqlarının qiymətləndirilməsi üçün hüquqi bazanın yaradılmasına dair təkliflərin hazırlanması |
| **Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi** | 2016 | Prioritet 5.1: İnformal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınması<br>Fəaliyyət 5.1.1: İnformal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınması mexanizminin hazırlanması<br>Tədbir 5.1.2 İşə qəbul zamanı peşə ixtisasını təsdiq edən sənədin tələb edilməsinin hüquqi bazasının formalaşdırılması |
| **Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin Əsasnaməsi** | 2016 | Peşə Təhsili üzrə Dövlət Agentliyinin Əsasnaməsində qeyd edilir: "2.1.5. qeyri-formal və informal üsullarla əldə edilmiş səriştələrin tanınması ilə bağlı metodikaları hazırlayır və tətbiqini təmin edir;, "3.1.22.qeyri-formal və informal üsullarla əldə edilmiş səriştələrin qiymətləndirilməsi əsasında onların müvafiq peşə standartlarına uyğunluğunu müəyyən edən metodikanı hazırlayır;" və "3.1.23. qeyri-formal və informal üsullarla əldə edilmiş səriştələrin (kompetensiyaların) tanınmasını təmin edir; |
| **PTT ilə bağlı Qanun Layihəsi** | 2018 | Maddə 3. Peşə təhsili sahəsində dövlət siyasətinin əsas prinsipləri və istiqamətləri<br>3.2.3. peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə edilmiş səriştələrin tanınması<br>Maddə 10. Peşə təhsili müəssisəsi<br>10.7. Formal peşə təhsilinin təşkili, o cümlədən qeyri-formal və informal üsullarla əldə edilmiş təhsilə dair |

| | | |
|---|---|---|
| | | dövlət sənədinin qəbul edilməsi ilə bağlı qaydalar müvafiq icra orqanı tərəfindən təyin edilməlidir; |
| **“Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nin təsdiq edilməsi barədə Qərar** | 2018 | Maddə 2.1.14. Informal və qeyri-formal təhsil vasitəsilə əldə olunmuş səriştələrin tanınması – informal və qeyri-formal təhsil vasitəsilə əldə edilən bilik və bacarıqların müvafiq standarta uyğunluğunun akkreditasiyadan keçmiş qurum tərəfindən müəyyənləşdirilməsi, sənədləşdirilməsi, qiymətləndirilməsi və sertifikatlaşdırılması prosesidir; |

## 3.2 Yaşlıların Təhsilinə dair Siyasi Müddəaların İcmalı

Hökumət yaşlıların təhsili ilə bağlı siyasi və qanunvericilik bazasını hazırlamaq və tətbiq etmək istiqamətində müəyyən addımlar atmışdır. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın 4-cü Maddəsi müasir tələbləri qarşılayan və ömürboyu təhsil təmin edən təhsil infrastrukturunun qurulmasını nəzərdə tutur.

Azərbaycanda yaşlıların təhsili "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi qaydası" sənədi ilə tənzimlənir.

Ayrılıqda isə universitetlər öz təşəbbüsləri əsasında ömürboyu təhsil konsepsiyasına öz töhfələrini verirlər. Məsələn, Bakı Ali Neft Məktəbində Ömürboyu təhsil fakültəsi fəaliyyət göstərir və əsas funksiyası sənaye sahsində çalışan mütəxəssislər üçün qısamüddətli təlim, ixtisasartırma və iş yerində təlim kursları keçirməkdir.

## 3.3 QFİTT-lə bağlı imkanlar və çətinliklər

QFİTT-in tətbiqi nəticəsində əldə ediləcək üstün cəhətlər və qarşıya çıxacaq çətinliklər arasında birbaşa əlaqə mövcuddur. Kvalifikasiyası olmayan işçilərə kvalifikasiyanın verilməsinə köklənən və mövcud qeyri-təkmil təcrübələrə əsaslanan məhdud yanaşmanı həyata keçirmək daha sadə görünür. Lakin bu cür yanaşma Azərbaycanı sistemin başqa yerlərdə daha geniş tətbiqi nəticəsində insanlara və cəmiyyətə verdiyi çoxsaylı faydalardan məhrum edəcəkdir. İmkanları tam şəkildə araşdırmaq üçün bir çox sahələrdə qarşıya çıxacaq silsilə maneələri nəzərdən keçirmək lazımdır, bunlara daxildir:

Strategiya

Bir çox sayda fərqli strategiya sənədlərində QFİTT-in konkret şəkildə adının çəkilməsi həm imkan, həm də çətinliklər deməkdir. Digər tərəfdən də bu istiqamətdə addımların atılması üçün konkret iradə mövcuddur, o cümlədən PTT-yə dair Yol Xəritəsi və onun icrasına nəzarət edən xüsusi işçi qrup mövcuddur, bu qrupun ən son, dördüncü görüşü 3 may, 2018-ci ildə keçirilmişdir. Başqa bir tərəfdən isə fərqli istinad və təşəbbüsləri nəzərə alsaq, uyğunsuzluq, hətta ziddiyyətlərin olması belə qaçılmazdır. Bunların bir-biri il müqayisə edilməsi və yaxud aydınlaşdırılması QFİTT üçün icra planının hazırlanması və tətbiqi məsələsini kölgə altında qoya bilər. QFİTT-lə bağlı yekun razılaşdırılmış

Konsepsiyanın da əsas məqsədlərindən biri nəzərdə tutulan fəaliyyətləri prosesin tətbiqinə imkan verəcək qaydada yerinə yetirməkdir.

Fərdi Ehtiyacların Qarşılanması

Strategiyanın istiqamətverici və məcburi xarakterini nəzərə alsaq, QFİTT konsepsiyası fərdi tələbləri qarşılamaq baxımından qeyri-müəyyən və daha mübahisəli görünür. Lakin bu onun əhəmiyyətini azaltmır, belə ki heç bir ölkə qeyri-formal təlimin istifadəsini özündə ehtiva etmədən və dəstəkləmədən həqiqi, çevik və əlverişli İRİ strategiyasını hazırlamaq barədə düşünə bilməz. Əslində təhsil və təlimdə islahatlara təkan verən faktlardan biri budur ki, formal təlim özü-özlüyündə bütün iqtisadi, sosial və fərdi tələbləri qarşılaya bilməz.

İşəgötürənlər

İşəgötürənlərin QFİTT-in nəticələri ilə bağlı fikirlərini indidən müəyyən etmək hələ çox erkəndir. Aydındır ki, bu, əsas etibarilə, prosesin etibarlılığı və qətiyyətli olmasından asılı olacaqdır, lakin bu meyarlar qarşılandığı halda belə QFİTT üçün əlavə sorğu aparılmalıdır ki, bazarın bu tərəfləri araşdırılsın.

Bu bazarın formalaşması ilə işlər bitmir, eyni zamanda QFİTT-in həyata keçirilməsi zamanı dəlillərin formalaşması və qiymətləndirilməsi proseslərində işəgötürənlər arasında əməkdaşlığın olmasını tələb edəcəkdir. Qeyd edildi ki, PTT-yə dair Strateji Yol Xəritəsində şəxslərin QFİTT-də iştirakı ilə bağlı müəyyən formada hüquqi tələblər irəli sürülür. İstənilən bu cür direktiv QFİTT-lə bağlı Aİ perspektivində istər yanaşmaya, istərsə də təcrübələrə əks mövqe formalaşdıracaqdır. Sistem yalnız o təqdirdə səmərəli və dayanıqlı tətbiq edilə bilər ki, həm işəgötürən, həm də işçi onu düzgün başa düşsün və dəyərləndirsin.

## 3.4 Yaşlıların Təhsilinin Məhdud Təmin edilməsi problemi

Yaşlıların Təhsilinin təmin edilməsi ilə bağlı məhdudiyyət həm QFİTT-i tətbiq etmək üçün bir səbəbdir, eyni zamanda onun tətbiqi üçün potensial bir maneədir. Bu cür təlim kifayət qədər təmin edilmədiyi halda işçilərin ixtisas səviyyəsi artmayacaqdır, lakin bu da o demək deyil ki, onlar QFİTT-in əsasında bütün kvalifikasiya tələblərini qarşılaya biləcəklər. Müasir, tələblərə cavab verən standartların fonunda hazırlanmış kvalifikasiyaları nəzərə alsaq, namizədlərin çatışmayan bilik və bacarıqlarını inkişaf etdirmək baxımından konkret təlimlərə ehtiyaclarının olacağını ehtimal etmək olar. Buna görə də QFİTT üçün Yaşlıların Təhsili sahəsində müəyyən potensial tələb olunur, lakin bu onu əvəz etmir.

Buna görə də hazırda yaşlıların təhsili ilə bağlı həyata keçirilən təcrübələr aiddiyyəti kvalifikasiyaların əsasında duran keyfiyyəti təmin edilmiş və standartlara əsaslanan yanaşmaya uyğunlaşdırılmalıdır. Bu da öz növbəsində təcrübə və prosedurlarda yeniliklərin olmasını tələb edir, bu da QFİTT-in həyata keçirilməsi üçün ilkin şərtdir.

Yenə də qeyd edirik ki, Layihə pilot layihənin məqsədləri üçün bu tələbləri dəstəkləmək iqtidarındadır, lakin daha uzunmüddətli əsasda ölkə üzrə prosesin icrası üçün müvafiq qaydada resursların təmin edilməsi lazımdır.

Biz artıq standartlar, istiqamətləndirmə və keyfiyyətin təminatı əsasında qiymətləndirmə ilə bağlı tələbləri nəzərdən keçirdik. Bunlar QFİTT üçün vacib olsalar da, həqiqətən də çevik bir sistemin hazırlanacağı halda kifayət etməyəcəklər. Digər bir tələb qismən sertifikatlaşma ilə bağlıdır, belə ki bu da öz növbəsində bütöv kvalifikasiyaların müvafiq hissələrini tamamlamağa (və sertifikat almağa) imkan verən proqramların təşkili və tətbiqini tələb edir.

| |
|---|
| Yuxarıda qeyd edilən məqamlardan artıq aydın olur ki, Azərbaycan QFİTT-lə bağlı milli sistemin bütün tələb olunan komponentlərinin hazır olması baxımından bir qədər geridədir və bütün lazım olan bacarıqlar və metodologiyalar hələ hazırlanmalıdır. Bununla belə, ilkin mexanizmləri hazırlamaq və pilot olaraq sınaqdan keçirmək üçün strateji baza formalaşdırıla bilər və bunun üçün müvafiq resurslar mövcuddur. |

## Əlavə 1: Biblioqrafiya

**Lüğət**

*Qeyri-formal və informal təlimin tanınması prosesində istifadə edilən 130 əsas termini ehtiva edən faydalı lüğəti bu linkdən əldə etmək olar:*


CEDEFOP, Avropa təhsil və təlim siyasətinə dair terminlər lüğəti - seçilmiş 130 əsas termin, 2-ci nəşr, 2014. http://www.cedefop.europa.eu/en/events-andprojects/projects/validation-non-formal-and-informal-learning/europeaninventory/european-inventory-glossary

Rutkowski, Jan J. 2015, Dünya Bankı, Bacarıqlarla bağlı tələblər, Azərbaycanda əsas nəticələr, STEP İşəgötürənlər arasında Sorğu